Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dövlət və ictimai maraqların müdafiəsi

**Vətən, dövlət, bayraq, milli-mənəvi dəyərlər hər zaman ictimai və dövlət maraqlarının vəhdətinə, uzlaşmasına imkan verir. Yəni bu kimi ali məfhumlar hər zaman birləşdiricilik prinsiplərini özündə əks etdirir. Vətən müharibəsinin başlaması, torpaqlarımızın işğaldan azad edilməsi uğurunda başlanan müzəffər yürüş bir daha ictimia və dövlət maraqlarının vəhdətini ifadə etdi.**

# Dövlət və ictimai maraqların birləşdiyi an - "əzizlərini döyüşdə itirənlər də Prezidentin müharibəni davam etdirməsinə dəstək verdi"...



Dövlət və ictimai maraqların birləşməsi Azərbaycan xalqının müzəffər yürüşünü qələbə ilə nəticələndirdi...

**"Öz yaxınlarını, öz qohumlarını, əqrəbalarını itirmiş insanlar da deyirdilər ki..."**

"...İkinci Qarabağ savaşı dönəmində də Ermənistan döyüş meydanında ilk gündən məğlubiyyətə uğramağa başlamışdı. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmadıq. Hətta manevr etmək məqsədilə də geri addım atmadıq. Ermənistan isə artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak oldular. Bu görüntülər var. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Tərtər şəhərinə, - o qədər də böyük şəhər deyil, - 20 minə yaxın raket düşmüşdür. Ancaq Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Öz yaxınlarını, öz qohumlarını, əqrəbalarını itirmiş insanlar da deyirdilər ki, ancaq irəli getməliyik". Prezident İlham Əliyevin "CNN Türk"ə bildirdiyi bu fikir böyük həqiqəti özündə birləşdirir. Gerçəkdən də, bütün xalqımız, şəhid ailələri, doğmalarını müharibədə itirənlərin hamısı "Vətən sağ olsun" deyib müzəffər ordumuzun daha da irəli gedib torpaqlarımızı işğaldan azad etməsini istəyirdi. Hətta bu barədə Ali Baş Komandana minlərlə, onminlərlə yazılı müraciətlər ünvanlanırdı. Hamının yeganə arzusu toraqlarımızın düşmən tapdağından azad edilməsinə nail olmağımız idi. Tarixçilər qeyd edir ki, hətta müharibədə əzizlərini itirənlərin də irəl gedin, dayanmayın deməsi ictimai və dövlət mənafelərinin birləşdiyi məqamlardan biri idi. Azərbaycanda baş verən istənilən çətinlikdə xalqınızın birliyinin özünü göstərdiyini deyən tarixçilərin fikrincə, ictimai və dövlət maraqları, mənafeləri çox məsələlərdə, o cümlədən də ərazibütövlüyümüz məsələsində özünü biruzə verir.

**"Xalqımız üçün əsas olan o idi ki, torpaqlarımız işğaldan azad olunsun..."**

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bizimlə söhbətində bildirdi ki, torpaqlarımızın işğaldan azad olunması işində ictimai və dövlət mənafeyinin üst-üstə düşməsi həqiqətən də mühüm hal oldu. "Ümumiyyətlə, bu gün Azərbaycan iqtidarı və Azərbaycan xalqı vahid mövqedən çıxış edir. Hesab edirəm ki, İkinci Qarabağ müharibəsi dövründə də Azərbaycanın Ali Baş Komandanının, cənab Prezidentin birmənalı şəkildə reallaşdırdığı bu siysət, torpaqlarımızın işğaldan azad olunması ilə bağlı həyata keçirdiyi işlərdə xalq-Prezident-ordu birliyinin çox yüksək bir nümunəsinin şahidi olduq. Bu gün də belədir. Xalqımız üçün əsas olan o idi ki, torpaqlarımız işğaldan olunsun və olundu da".

**"Hər bir vətəndaş, şəhid ailəsi, doğmalarını itirən şəxslər cənab Prezidentdən rica edirdi ki..."**

V.Rəhimzadənin sözlərinə görə, dövlət, dövlət başçısı Azərbaycan xalqının arzu və istəklərini özündə ifadə edən kifayət qədər tarixi və möhtəşəm işləri reallaşdırdı: "Həqiqətən də hər bir Azərbaycan vətəndaşı 30 illik işğala son qoyulması ilə bağlı cənab Prezidentin "irəli Azərbaycan əsgəri" əmri ilə torpaqlarımızın işğaldan azad edilməsinin şahidi oldu. Bu gün doğurudan da Azərbaycan ordusunun gücü, qüdrəti, xalq - ordu-Prezident-dövlət birliyinin çox yüksək səviyyədə olduğunu müşahidə edirik. Ona görə də, hər bir vətəndaş, şəhid ailəsi, doğmalarını itirən şəxslər cənab Prezidentdən rica edirdi ki, 30 illik işğala son qoysun və torpaqlarımızı azad edilməsi üçün əmr versin".

**"Şəhid valideynləri də, qazi valideynləri də, yaxınları da bu məsələdə dövlətlə həmrəylik nümayiş etdirdi"**

Torpaqlarımızın işğaldan azad edilməsi yürüşünün, bu zəfər yürüşünün Azərbaycan vətəndaşının, Azərbaycan əsgərinin, bir sözlə hamının ürəyində olan bu arzundan irəli gəldiyini deyən V.Rəhimzadə hesab edir ki, bütün xalqımızın tələbi, istəyi, arzusu bununla bağlı idi. "Şəhid valideynləri də, qazi valideynləri də, yaxınları da bu məsələdə dövlətlə həmrəylik nümayiş etdirdi. Onlar öz ağrı-acılarını bir yana qoyub torpaqlarımızın azadlığını düşünürdülər, deyirdilər ki, Prezident müharibəni dayandırmamalıdır, ancaq irəli getməliyik.

Mən bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm, yaralı qazilərimizə Allahdan şəfa diləyirəm, ordumuzda, Silahlı Qüvvələrimizdə xidmət edən hər bir əsgərimizə, zabitimizə ürəkdən təşəkkür edirəm. Doğurudan da 30 illik işğala son qoyulması üçün biz bu insanların şücaətinin, fədakarlığının şahidi olduq. Onların sayəsində bu həsrətə, nisgilə son qoyuldu. Biz qəhrəmanlarımızın şücaəti nəticəsində Azərbaycan tarixində olmamış bir qəhrəmanlığın şahidi olduq"-deyə bildirən V.Rəhimzadə bildirdi ki, Vətən müharibəsində xalqla dövlətin birliyi nəticəsində əldə etdiyimiz qələbə tarixlərə, dastanlara sığmaz. Heç şübhəsiz, burada xalqla dövlətin, xalqla iqtidarın birliyinin böyük rolu olduğunu deyən müsahibmizin sözlərinə görə, bütün güclər, arzular bir yerə cəmləşib tarixi qələbənin rəhni oldu. Ekspert hesab edir ki, müharibə dövründə xalqla dövlətin istək və maraqları bir-biri ilə çox sıx şəkildə uzlaşır, mənafeləri üst-üstə düşürdü.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**